# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 343** **Bakı şəhəri, 3 sentyabr 2022-ci il**

***"Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması və transplantasiyası Qaydası"nın təsdiq edilməsi haqqında***

"İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması və transplantasiyası Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

2.1. beynəlxalq təcrübə nəzərə alınmaqla, donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması prosesinin təşkilinə və transplantasiya metodu ilə tibbi yardım göstərilməsinə dair tələbləri iki ay müddətində təsdiq etsin və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

2.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2022.- 8 sentyabr.- S.6.